

**Azərbaycan xalqı artıq iki əsrə yaxındır ki, erməni millətçiləri tərəfindən vaxtaşırı, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin, həmçinin əsas insan hüquq və azadlıqlarının kütləvi şəkildə kobud pozulması, işgəncələr və digər qeyri-insani, insan ləyaqətini alçaldan rəftarla müşayiət olunan etnik təmizləməyə və təcavüzə məruz qalmaqdadır...**

# Erməni təcavüzü

## və onun tariximizə, maddi və qeyri-maddi irsimizə dağıdıcı təsiri

### 31 mart - Azərbaycanlıların soyqırımı günüdür...

**Ermənistanın Azərbaycana artıq 20 ildən artıq müddətdə hərbi təcavüzü nəticəsində 20 min nəfərdən artıq azərbaycanlı həlak olmuş, 50 min nəfər yaralanmış, müxtəlif dərəcəli xəsarətlər alaraq əlil olmuş, 4.500 nəfər itkin düşmüş, qadınlar, qocalar, uşaqlar əsir və girov götürülmüş, amansız işgəncələrə məruz qalmış, bir milyon nəfər azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, 1000-dək yaşayış məntəqəsi dağıdılmışdır.**

Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayıl rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, ümumən 17 min kvadrat kilometr ərazidə ən məhsuldar torpaqlarımız zəbt olunmuşdur.

Bu işğalçılıq siyasətinin tərkib hissəsi - Azərbaycan xalqının tarixi, maddi və qeyri-maddi irsinə dağıdıcı təsiridir. Belə ki, beş minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası da bu gün işğal altındadır. 1968-ci ildə həmin mağarada Məmmədəli Hüseynovun rəhbərliyi altında keçirilən arxeoloji qazıntılar zamanı preneandertalise məxsus olan aşağı çənənin fraqmenti tapılmış, bununla da dünya arxeoloji tarixinə unikal və əhəmiyyətli eksponat kimi daxil olmuşdur.

Bu gün isə düşmən işğalı altında olan Azıx mağarasında ermənilər tərəfindən bütün beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq arxeoloji qazıntılar həyata keçirilməkdədir. Həmin qazıntılarda beynəlxalq ekspertlər də iştirak edir. Bütün dünya birliyi bu ədalətsizliyə göz yumur. Erməni vandalizmi təkcə canlılara deyil, həm də abidələrə qarşı çevrilmişdir. Belə ki, erməni millətçiləri Şuşa əhalisinə mənəvi-psixoloji zərbə vurmaqla, insanlara güllə atmaqla kifayətlənməmiş, həm də dünya mədəniyyətinin inciləri, misilsiz sivilizasiya nümunələri sayılan tarixi abidələrə və Azərbaycan xalqının dünyaşöhrətli korifey sənətkarlarının bu şəhərdəki heykəllərini də gülləbaran etmişlər.

Bu təcavüzün faciəli nəticələri təkcə Azərbaycan ərazilərinin zəbt edilməsi ilə məhdudlaşmır. Azərbaycana qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti tariximizə, mədəni, dini abidələrimizə, toponimlərimizə və digər milli dəyərlərimizə də ağır zərbələr vurmuşdur.

Ermənistan Respublikası beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq, bütün dünyanın gözü qarşısında Azərbaycanın bənzərsiz mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir. Belə ki, Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində ölkə və dünya əhəmiyyətli 100.000-dən artıq mədəniyyət nümunəsi yararsız hala salınmış və qəsb edilmiş, 500-dək tarixi və 100-dən çox arxeoloji abidə, 22 muzey dağıdılmışdır.

Erməni millətçiləri maddi mədəniyyət abidələri ilə yanaşı, xalqımızın zəngin folklor, musiqi, ədəbiyyat nümunələri və digər mənəvi sərvətlərini ardıcıl və sistemli şəkildə mənimsəməklə, əslində işğalçılıq müharibəsini həm də mədəni sərvətlər müstəvisində genişləndirirlər. Ermənilər Azərbaycan bəstəkarlarının musiqi əsərlərini, xalq mahnı və rəqslərimizi, digər mədəni irs nümunələrimizi də özününküləşdirirlər. Bununla bağlı Ümumdünya Əqli Mülkiyyət Təşkilatına dəfələrlə müraciət olunmuşdur.

Heç bir qanuna və mənəvi-əxlaqi meyarlara məhəl qoymayan erməni millətçiləri mövcud cəzasızlıq şəraitindən yararlanaraq, Azərbaycan mədəniyyətinə qarşı mənəvi terroru dərinləşdirir, Şuşa şəhəri ətrafındakı bürünc dövrünə aid yüzlərlə məzarda arxeoloji qazıntılar aparmaqla beynəlxalq hüquq normalarına daha bir saymazyana münasibət nümayiş etdirirlər. Ermənilər zəbt olunmuş Azərbaycan ərazilərində soydaşlarımızın məzarlarını sökür, mərmər daşları, qəbirüstü abidələri qarət edirlər. İşğal zonasındakı meşələr talan olunur, təbiətin incisi sayılan çinarlıqlar məhv edilir, bu ağaclar kütləvi şəkildə doğranıb aparılır. Bu dəhşətli faktları nəzərə alaraq, mədəni hüquqların və bütövlükdə mədəni irsin qorunması ölkəmizdə xüsusi əhəmiyyət kəsb edən sahələrdəndir. Belə ki, Azərbaycan Respublikası 1954-cü il Haaqa Konvensiyasına və Birinci Protokola 1993-cü ildə, ikinci Protokola isə 2000-ci ildə qoşulub.

Bu Konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Eyni zamanda Konvensiyanın iştirakçıları özlərinin qanunvericiliyində elə qanunlar qəbul etməlidir ki, bu konvensiya onun şərtlərini pozan və pozmağa göstəriş verənləri cəzalandıra bilsin.

Milli qanunvericilyə gədikdə isə, Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların vəzifələrinin sırasında tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı müddəaların olması və "Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur" ifadəsinin təsbit olması mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir. Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin qorunması, bununla da insanların mədəni hüquqlarının təmini təkcə ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzim edilir.

16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq bir sıra beynəlxalq müqavilələrə, o cümlədən adları çəkilən konvensiyalara qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşdırmışdır. 10 aprel 1998-ci il tarixdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir.

Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova fəaliyyəti dövründə Azərbaycanın tarixi və mədəni sərvətlərinin Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsi, insanların mədəni hüquqlarının pozulması hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə zidd olması barədə bəyanat vermiş və Azərbaycanın tarixi və mədəni sərvətlərinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə qarşı Ermənistan Respublikasının və

erməni millətçilərinin təcavüzünün qarşısının alınması, həmçinin təqsirkarların cəzalandırılması üçün beynəlxalq birliyi həmrəyliyə və bu məsələdə ədalətli mövqe nümayiş etdirməyə çağırmış, bununla bağlı 28 fevral 2005-ci il tarixdə "Azərbaycanın tarixi və mədəniyyət abidələrinin erməni millətçiləri tərəfindən dağıdılması və öz mənafeləri baxımından saxtalaşdırılması beynəlxalq hüquq normalarının kobud pozuntusudur" adlı Bəyanat qəbul edərək nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən YUNESKO-nun Baş direktoruna müraciət ünvanlamışdır.

Həmin Bəyanatda Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələrinin təkcə Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı yeddi rayonun zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmadığı, Ermənistanda xalqımıza qarşı dövlət səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasətinin Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurduğu qeyd olunmuşdur.

Müvəkkil tarixi və mədəni sərvətlərimizin Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən dağıdılması və mənimsənilməsinin, insanların mədəni hüquqlarının pozulmasının beynəlxalq hüquq normaları və prinsiplərinə tamamilə zidd olduğunu bəyan etmiş, beynəlxalq birliyi bu təcavüzün qarşısının alınması, təqsirkarların cəzalandırılması üçün həmrəylik və ədalətli mövqe nümayiş etdirməyə çağırmışdır.

Müvəkkilin Şuşanın işğalı ilə əlaqədar Bəyanatları xüsusi olaraq vurğulanmalıdır. Həmin Bəyanatlarda beynəlxalq təşkilatların məlum münaqişənin həllinə yönəlmiş səyləri ikili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun həyata keçirilməsinin, monoetnik dövlətə çevrilmiş Ermənistan işğalçı, təcavüzkar etnik təmizləmə siyasətindən, ərazi iddialarından əl çəkərək, qəbul edilmiş mühüm sənədlərin müddəalarını yerinə yetirməsinin, ölkəmizin ərazi bütövlüyü, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa edilməsinin, onların öz doğma yurdlarına qayıtmasının, əsir və girovların azad olunmasının, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən Ermənistan dövlətinə qarşı sanksiyaların tətbiq olunmasının vacibliyi qeyd edilmişdir.

**Ombudsmanın qeyd olunan sahədə fəaliyyəti bu gün də sistemli olaraq davam etdirilməkdədir.**

**Nəcibə MUSTAFAYEVA,**
***Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) mədəni hüquqlar üzrə müşaviri***

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. B. "Hüquq ədəbiyyatı"-2009.
2. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) illik məruzələri (2007, 2008, 2009 illəri üzrə).
3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 1998 haqqında "əlaqəli hüquqlar haqqında": hüquq ədəbiyyatı. manın) illik məruzələri (2007, 2008, 2009 illəri üzrə).
4. Головистикова А.Н., Л.Ю. Грудцина. Права человека. Москва, 2008.
5. Сборник международных документов. Валтес Клувер, 2005.

**Резюме**

В статье дается информация об Армяно-Азербайджанском Нагорно-Карабахском конфликте, приводятся факты и материалы, доказывающие оккупацию азербайджанских земель армянскими вооруженными силами, указываются разрушительные последствия данной оккупационной политики, ее воздействие на историческое, материальное и не материальное наследие азербайджанского народа.

Автором также анализируются основные международные и национальные документы, регулирующие данную сферу, описывается деятельность Уполномоченного по правам человека (Омбудсмана) Азербайджанской Республики в указанном направлении.

**Summary**

The article provides information about Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, facts and materials which support the occupation of Azerbaijan lands by Armenian military forces, destructive influence of this occupation policy on historical, material and non material heritage of Azerbaijan nation.

The author also analyzes main international and national documents regulating the corresponding area, the activity of Commissioner for Human Rights (Ombudsman) of Azerbaijan Republic in this direction.